**Əziz həmvətənlər !**

Azərbaycan Respublikasının Los Ancelesdəki Baş Konsulluğunun internet səhifəsinə müraciət etdiyiniz üçün Sizə öz təşəkkürümüzü bildiririk.

Los Anceles şəhərində yerləşən Baş Konsulluğun konsulluq dairəsinə ABŞ-ın Alyaska, Arizona, Aydaho, Havay adaları, Kaliforniya, Kolorado, Montana, Nevada, Nyu Meksiko, Oreqon, Vaşinqton, Vayominq və Yuta ştatları daxildir.

Baş Konsulluğun qarşısında duran əsas vəzifələr, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında mövcud olan dostluq əlaqələrinin inkişaf etdirilməsindən, iqtisadiyyat, elm və mədəniyyət sahələrində əlaqələrin genişləndirilməsinə yardım etməkdən və qeyd olunan ştatlarda yaşayan vətəndaşlarımızın və həmçinin dövlətimizin mənafelərinin yüksəldilməsinin təmin edilməsindən ibarətdir.

Amerika Birləşmiş Ştatlarının qərb sahilində Azərbaycanın ilk diplomatik təmsilçiliyinin açılması, daim inkişaf edən ikitərəfli Azərbaycan - ABŞ əlaqələrində atılan mühüm addımlardan biridir. Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona rəsmi səfəri zamanı ABŞ Prezidenti C.Buş Azərbaycanı ABŞ-ın əsas müttəfiqi kimi adlandırmışdır. Azərbaycan regionda praqmatik və balanslaşdırılmış siyasət sürərək, regionun inkişafında lider ölkəyə və ABŞ-ın yaxın tərəfdaşlarından birinə çevrilmişdir.

Ölkəmizin on beş ildən artıq Ermənistan tərəfindən təcavüzə məruz qalması və bir milyon həmvətənlimizin doğma torpaqlarından didərgin düşməsi haqqında acı həqiqətlər dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalıdır. Əziz həmvətənlərimiz, bu məsələdə hamımızın üzərinizə böyük məsuliyyət düşür. Xalqımız qarşısında vətəndaşlıq borcunu yerinə yetirərək, Azərbaycan haqqında həqiqətlərin dünyaya çatdırılması hər birimizin ümdə vəzifəsidir.

Müstəqilliyini bərpa etdiyi andan Azərbaycan regionda həyata keçirilən bütün regional enerji və nəqliyyat layihələrinin təşəbbüskarı olmuşdur. Heydər Əliyevin uzaqgörənliyi ilə Azərbaycan 2006-cı ilin 13 iyul tarixində tam şəkildə istismara verilmiş beynəlxalq və regional strateji əhəmiyyətə malik olan Bakı – Tbilisi – Ceyhan neft boru kəməri layihəsinin təşəbbüskarı olmuş, dost Gürcüstanın ərazisindən keçərək qardaş Türkiyənin dəstəyi ilə onun Ceyhan limanınadək çəkilmişdir. Bu və Bakı – Tbilisi – Ərzurum qaz boru kəməri, Bakı – Tbilisi – Axalkalaki - Qars dəmir yolu kimi digər layihələrin reallaşması tək Azərbaycan üçün deyil və həmçinin region ölkələri üçün yeni imkanlar yaradır.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahat yönlü siyasət nəticəsində ölkədə sabitliyin qorunub saxlanılması, iqtisadi, ictimai və sair sahələrdə yüksək nailiyyətlərin əldə edilməsi mümkün olmuşdur.

Azərbaycanın hələ də yeni çağırışlarla üzləşməsinə rəğmən, iqtisadiyyatımızın inkişaf etməsi, ordumuzun güclənməsi, ölkədə dinamik islahatların həyata keçirilməsi və bu gün Azərbaycanın dünya ictimaiyyəti qarşısında öz sözünü deməyə qadir olması hər birimiz üçün sevindirici haldır.

Əziz həmvətənlər,

Təşəbbüs və təkliflərinizi böyük məmnuniyyətlə dinləmək üçün Sizi Azərbaycanın bir parçası olan Baş Konsulluğa dəvət edir, gələcək fəaliyyətimizdə Sizin dəstəyinizə ümid edirik.

**Baş Konsul**
**Elin Süleymanov**